**Jafali N.H.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.58.136-162**

# Particularities of legal system of Azerbaijan Republic

**Abstract**: It is analysed a separate particularities of the legal system of Azerbaijan. It is noted that, first of all, there should be clarified the notion of 'structure' and disclosed its essence. The structure is an assemblage of completed elements. However, this assemblage should not be understood in narrow sense since the structure of system, its functional components should be understood like a sum of all direct and opposite relationships.

Since any structure has an objective nature, a researcher, who studies the legal system of Azerbaijan, has to refer to the structure of the legal system of Azerbaijani society as it is manifested like a part of appropriate real legal sphere of a public life. It is noted an extremely usefulness of hierarchical and cohesive relationships between existing components of the legal reality of Azerbaijan that lives in the transition period.

The structure of legal system of Azerbaijan might be limited not only with positive law. The legal awareness of the Azerbaijani people that joined by other structural elements should be an integral part of the legal system of Azerbaijan Republic. Legal awareness comes in all stages of the legal process and finds its expression in the content of legal norms.

There are considered the social factors, which currently impact in an idea of a law. It is an important to take into account the particularities of national legal awareness of the Azerbaijani people when reforming the legal system of the country.

[♦] **Jafarli Nazim Hasan oglu** – Doctor of Law, Professor, Deputy Director of the Institute of Law and Human Rights of National Academy of Sciences of Azerbaijan on Academic Affairs, honored teacher (Azerbaijan). E-mail: huquq.insan.haqlari@mail.ru

It is considered the particularities of the legal system of Azerbaijan in the context of the notions of legal system, legal ideology, legal psychology, legal experience and their role in the legal system of Azerbaijan. There is showed that they have played an important role in lawmaking and performance of the laws, their application.

There is concluded that an analysis of the particularities of legal practice takes relatively independent place in the legal system of society and plays an important role in the mechanism of legal regulation. Legal norms, norms, programmes and models of behaviour have included in the normative legal; system of Azerbaijan Republic through legal activity that reflect the main socio-economic, cultural and other needs of the Azerbaijani society. Socio-economic, political and national situation that has formed in Azerbaijan, and also the conditions of education, culture and spiritual life require the increasing of law and order, and also accepting the main and important laws.

It is pointed out an importance of reference to international practice and advantage its using. There is noted that in compliance with realities of Azerbaijan the courts should be based on fundamental legal values – human rights, and, also as it is provided by the Constitution of Azerbaijan Republic, to apply the norms of international law as an integral part of the legislative system of the country. This circumstance characterises whole legal system of Azerbaijan Republic and its separate components.

**Keywords**: structure; system; legal system; elements and structure; backbone component; systems approach.

Azərbaycan Respublikasının hüquqi sisteminin strukturunu təhlil edərək, nəzərə almaq lazımdır ki, araşdırma təkcəməcmu yaradan elementlərdən hər hansı biri deyil, həm də bu elementlər arasında əlaqələndirmənin həyata keçirilməsi forması barədə aparılmalıdır. “Struktur” anlayışı tamlığı təşkil edən elementlərin

toplusu olaraq dar mənada nəzərdən keçirilməməlidir. Sistemin strukturu – onun funksional komponentləri arasında bütün birbaşa və əks əlaqələrin məcmusu sayılır. Bu anlayış elmdə hissələrin və bütövün, məqbul və qeyri-məqbul dəyişikliklərin, tədqiqatın obyektinin məzmun və formasının qarşılıqlı əlaqəsini ifadə etmək üçün istifadə olunur.

Strukturun mövcud əlaməti onun bütöv xarakter kəsb etməsidir. Struktur – qanunauyğun əlaqələr sisteminin bütün elementlərini əhatə edən kateqoriyadır. Struktur şərti olaraq sistemin tamlığını səciyyələndirməklə, sistemin bütün elementlərinin vahid silsiləsinə“nüfuz edir” [9, s. 46]. Deməli, strukturun izah olunması (üzə çıxarılması) obyektin bütöv, eyni zamanda, fərqli xarakterinin müəyyən edilməsi ilə bağlıdır.

Sistemin strukturunun fərqləndirilməsi özbaşına meydana çıxa bilməz, belə ki, istənilən struktur obyektiv xarakter daşıyır. Onun öyrənilməsi tədqiqatçını Azərbaycan cəmiyyətinin hüquqi həyatının strukturuna istinad etməyə vadar etmişdir. Nəticə etibarilə, belə qənaətə gəlmək olar ki, hüquqi sistemin strukturu ictimai həyatın müvafiq real hüquqi sferasının müəyyən hissəsi kimi özünü büruzə verir.

Bununla əlaqədar, L.B. Tiunovanın “hüquqi sistem” anlayışı elmin inteqrasiyası, o cümlədən, vahid şəkildə təşəkkül tapan hadisənin təhlili deyil, müəyyən ümumi sosial effekt, vahid məqsəd (ictimai münasibətlərin hüquqi tənzimlənməsi), bununla da sistemli bütöv kimi nəzərdə tutulan elmin qarşılıqlı təsirinin təmin edilməsi baxımından çoxplanlı və çoxxarakterli hadisələrin sintezi nəticəsində hüquq nəzəriyyəsində meydana gəlmişdir” fikri ilə razılaşmaq çətindir [16, s. 26]. Hüquqi sistemə uyğun olaraq bizim ümumi təhsil, habelə yalnız nəzəriyyədə qəbul edilə bilən və müxtəlif hüquqi vasitələrin hansı dərəcədə ümumi məqsədə nail olmasını ifadə edən sistemliliklə məşğul olmağımız təəssüratı yarana bilər. Lakin cəmiyyətdə hüquqi sistemin mövcudluğunun obyektiv və qanunauyğun xarakterinin təsdiq olunması üçün keçid dövründə hüquqi

gerçəkliyin real fəaliyyət göstərən komponentləri arasında iyerarxiya xarakterli və əlaqələndirici münasibətlərin nə qədər dəyərli olmasını ifadə etmək kifayət qədər qənaətbəxşdir.

Sistemin hansı məqsədlərdən təşkil olunmasına dair məsələ həqiqətən mühüm əhəmiyyət kəsb edir ki, bu da hüquqi sistemin strukturu və digər parametrlərinin bir çox cəhətdən bu problemə verilən cavabdan asılı olmasından irəli gəlir. Bununla bağlı V.Q. Afanasyev yazır: “Sistemin araşdırılmasına sırf funksional yanaşmada başlıca sayılan məsələ sistemi təşkil edən komponentlərin hansı şəkildə əlaqələndirilməsi və qarşılıqlı fəaliyyət göstərməsi deyil, sistemin yaradılması və fəaliyyətinə gətirib çıxaran məqsədlərin nə üçün bunu etməsidir” [7, s.148].

Hüquqi sistemə münasibətdə tətbiq edildikdə struktur hüququn daxili və ya onun ayrı-ayrı hissələrinin təşkili qismində çıxış edir. Hüquqda struktur bərabər qaydada davamlılığı və onun inkişafını ifadə edir. Hüquqi sistemə bu cür yanaşma obyektin təkcə statik deyil, həm də dinamik səciyyələndirilməsinə gətirib çıxarır.

Azərbaycan Respublikasının keçid dövrünün hüquqi sisteminin öyrənilməsi məqsədilə qeyd etmək lazımdır ki, sistemyaradıcı komponentlər yekcins və qeyri-yekcins, habelə mütəşəkkil və qeyri-mütəşəkkil ola bilər. Yekcins komponentləri sistemin keyfiyyətcə oxşar komponentləri qismində nəzərdən keçirmək olar. Müvafiq olaraq yekcins komponentlər keyfiyyətcə müxtəlif hüquqi hadisələrə çevriləcəkdir. Mütəşəkkil komponent elementlər nizamlılığı, daxilən bütövlüyü, kifayət qədər xarici ifadə formasına malik olması baxımından fərqləndirilir. Sistemin qeyri-mütəşəkkil komponentləri məhdud çərçivədə səmərəliliyə malik olmaqla, funksiyalarının yerinə yetirilməsini zəif şəkildə təmin edilir. Azərbaycan Respublikasının keçid hüquqi sistemində qeyri-yekcins və qeyri-mütəşəkkil komponentlərin genişmiqyaslılığı onun mütərəqqi inkişafını ləngidir və fəaliyyətinə çətinlik yaradır. Bir sözlə, quruluş baxımdan xarici ifadə forması və komponentlərin yekcinsliliyi, habelə sistemin qurulmasının məqsədlərinə uyğunluğu sistemin bütövlüyünün çox mühüm amilləri sayılır.

Hal-hazıradək ayrı-ayrı müəlliflər hüquq sisteminin komponent tərkibini kifayət qədər məhdud çərçivədə - rəsmi şəkildə müəyyən formal hüquqi hadisələr çərçivəsində ifadə etməyə cəhd edirlər. İ.N. Bartitsin fikrincə, istənilən dövlətin hüquqi məkanı formal hadisələrin sistemini özündə ehtiva edir. Müəllif hesab edir ki, "Bu, hər şeydən öncə, hüququn dövlət tərəfindən sanksiyalaşdırılmış formal xarakter daşıyan normativ-hüquqi aktlarda təzahür etməsini şərtləndirir" [8, s. 107]. Beləliklə, hüquq anlayışının məhdud mənada izah olunması "hüquqi məkan" anlayışının dar çərçivədə ifadə olunmasının yolverilməzliyinə gətirib çıxarmışdır. Hesab edilir ki, konkret və mücərrəd formasının vəhdətində hüququn bütövlükdə mövcud strukturunu inkar etməklə, hüquqi sistemi formal müəyyən olunmuş, obyektiv normaların örtüyü (охват) ilə məhdudlaşdırmaq olmaz. Gerçəklik və hüquqi sistemin strukturunun həddindən artıq geniş ifadə edilməsi (трактовка) bir-birilə uyğunluq təşkil etmir. Beləliklə, hüquq, hüquq düşüncəsi və hüquqi təcrübə ilə yanaşı, bəzi müəlliflər tərəfindən hüquq elmi də hüquqi sistemin komponenti qismində nəzərdən keçirilir. Belə ki, məsələn, A.P. Qlebov hüquqi sistemin məzmununu müəyyən hüquqi hadisələr – qanunvericilik, hüquqi təcrübə və hüquq elmi ilə məhdudlaşdırır. Hüquq elminin bütövlükdə hüquqi sistemin komponentinə aid edilməsi üçün kifayət qədər əsasın olmadığı güman edilir. Hüquqi sistem elm üçün ifadə obyekti kimi çıxış edir, bununla da onun elm hüdudları çərçivəsindən kənarda olması qənaətinə gəlmək mümkündür. Yalnız hüquq elminin hüquq düşüncəsinin tərkib hissəsi olduğu təqdirdə, o "cəmiyyətin hüquqi sistemi" anlayışı ilə əhatə edilə bilər.

Hər hansı obyektin qurulması barədə danışarkən, bu halda onun ibarət olduğu, təşkil edildiyi elementlərinin siyahısı, habelə həmin elementlər arasındakı əlaqələrin xarakteri müəyyən edilməlidir. "Hüquqi sistem" hüququn varlığının bütün sahələrini əhatə edən kateqoriya deyildir. Onun həcminə ictimai münasibətlərə hüquqi baxımdan təsir etməyə yönələn, eləcə də bu təsiri prosesini və nəticəsini xarakterizə edən hüquq gerçəklik hadisəsi daxildir. Belə ki,

"Sosializmin hüquqi sistemi" adlı iki cildliyin müəllifləri hüquqi sistemin tərkibinə norma və institutları, ictimai münasibətlərin inkişafına yönəlmiş hüquq təhsili və hüquq tətbiqetmə, eləcə də hüquqi baxış və təsisatların məcmusu daxil edilir [14, s. 39].

Aydındır ki, Azərbaycan Respublikasının hüquqi sisteminin strukturu yalnız pozitiv hüquqla məhdudlaşdırıla bilməz. Hansı komponentlər onun tərkib hissə qismində çıxış edir?

Beləliklə, Azərbaycan Respublikasının hüquqi sisteminin ayrılmaz elementi ətrafında və təsiri altında bütün digər struktur elementlərinin qruplaşdırıldığı Azərbaycan xalqının hüquq düşüncəsi sayılır. Bu hüquqi hadisə hüquqi sistemdə daha dinamik sayılmaqla, birbaşa olaraq dövlət tənzimetməsinə məruz qalmır [12; 13; 17]. İctimai düşüncə yalnız xaos və özbaşınalıq əleyhinə yönəlmiş həyat fəaliyyəti və tənzimetmənin, hüquqpozmaya görə məhrumiyyət tədbirləri, formal bərabərlik və ədalətlilik, insanın müdafiəsi, onun digər subyektlərin, o cümlədən dövlətin özbaşınalığından qorunmasının xüsusiyyətləri, mübahisələrin həlli üçün məhkəmə baxışı və s. barədə ideyaların əsası kimi hüquqi normativlik barədə müddəalar ifadə edildikdən sonra hüquqi meyara çevrilə bilər.

Cəmiyyətin hüquqi sisteminin tərkib hissəsi kimi hüquq düşüncəsi onun tərkib elementləri ilə sıx qarşılıqlı əlaqəyə malikdir. Belə ki, hüquq düşüncəsi hüquqyaradıcılıq prosesinin bütün mərhələlərinə nüfuz edir və öz ifadəsini hüquq normalarının məzmununda tapır. Burada normativ-hüquqi aktın layihəsinin işlənməsinə və onun qəbuluna cəlb olunan şəxslərin hüquq düşüncəsinin xarakteristikası əhəmiyyət kəsb edir. Hüquq düşüncəsi hüquqi göstərişlərin vətəndaşların davranışında həyata keçirilməsinə təsir göstərir. Cəmiyyətin hər bir üzvünün hüquqi düşüncəsinin kifayət qədər yüksək səviyyədə olması hüquq normalarının realizəsi (qadağalara əməl olunması, öhdəliklərin icra edilməsi, hüquqlardan istifadə olunması) ilə bağlı hüquqauyğun davranışı təmin edir [10, s. 315]. Hüquq düşüncəsi dövlət orqanlarının hüquq tətbiqetmə fəaliyyətində mühüm

rol oynayır. Hüquqi işlərə baxılması və hüquqi normalar əsasında konkret qərarların qəbulu prosesində onun əhəmiyyəti birbaşa olaraq Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin və Cinayət-Prosessual Məcəlləsinin ayrı-ayrı maddələrində təsbit edilmişdir.

Təəssüflər olsun ki, hüquq ədəbiyyatında hüquq düşüncəsinin digər növlərindən fərqli olaraq milli hüquq düşüncəsinə son dərəcə az diqqət yetirilmişdir. Bununla belə, həyat sübut edir ki, milli hüquq düşüncəsinin öyrənilməsi təkcə böyük elmi deyil, həm də praktiki maraq kəsb edir, habelə onun xüsusiyyətləri birbaşa olaraq bu və ya digər dövlətin hüquqi sisteminin digər struktur elementlərində öz əksini tapmışdır.

Hər şeydən öncə, Azərbaycan xalqının hüquq düşüncəsinə hazırda prioritet təsir göstərən sosial amillərə diqqət yetirmək istərdim:

1. Dövlət müstəqilliyinin əldə olunması və Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli yeni Konstitusiyasının qəbulu;
2. Dağlıq Qarabağda uzun sürən müharibənin olması, Azərbaycan Respublikasının ərazisinin təxminən 20%-nin işğal edilməsi və bununla əlaqədar bir milyondan yuxarı qaçqının mövcudluğu;
3. Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçidlə əlaqədar iqtisadi problemlər;
4. Ümumdemokratik prinsiplər əsasında yeni dövlətçiliyin formalaşması;
5. Respublikada milli azlıqlarla bağlı problemlərin süni şəkildə qızışdırılmasına cəhd formasında milli problemlərin yaradılması;
6. Xüsusi mülkiyyətçilər təbəqəsinin formalaşması və əhalinin əmlak bərabərsizliyinin dərinləşməsi;
7. Keçmiş SSRİ-də hökm sürən vahid sosialist ideologiyasından imtina olunması, ümumbəşəri dəyərlərə və milli xüsusiyyətlərə əsaslanan yenisinin formalaşdırılması.

Azərbaycan hüquq düşüncəsinin xüsusiyyətləri arasında mühüm əhəmiyyət kəsb edənləri qismində aşağıdakıları fərqləndirmək olar:

1. Hüquq və vəzifələr haqqında baxışların məhdud əlaqəsi.

Qərb hüquq düşüncəsində hüquq və azadlıqlar haqqında baxışlar prioritet rola malikdir. Azərbaycanda mövcud olan milli hüquq düşüncəsinə hələ də hüquq və vəzifələrin xüsusi qarşılıqlı əlaqəsinin mövcudluğu, öhdəliklərin üstün mövqeyə malik olması barədə nəzəriyyənin, habelə hüquq və vəzifələrin ayrılmazlığına dair təsəvvürün aydın şəkildə özünü büruzə verdiyi Sovet hüquq varisliyi (sosialist hüquq düşüncəsi) kimi amil təsir göstərir. Başqa sözlə, Qərb hüquq düşüncəsində hüquqlar haqqında baxışlar aparıcı mövqeyə malik olduğu halda, Azərbaycan hüquq düşüncəsində hüquq və vəzifələr haqqında fikirlər bərabər rol oynayır.

2. Əxlaq və hüquq düşüncəsinin bir-birinə inteqrasiyası ("vahid nöqtədə kəsişməsi"). Bu gün "xüsusilə qrup və fərdi səviyyədə aydın şəkildə təzahür edən Azərbaycan cəmiyyətinin yeni əxlaq düşüncəsinin formalaşması faktını ifadə etmək zəruridir". 1993-cü ildən Azərbaycan Respublikasında ölüm cəzasının icrasına moratorium qoyulması, 10 fevral 1998-ci ildə isə Respublika Prezidentinin təşəbbüsü ilə Milli Məclis tərəfindən ölüm cəzasının ləğvini nəzərdə tutan Qanunun qəbulunun bariz nümunə hesab edildiyi milli hüquq düşüncəsinin humanistləşdirilməsi meydana gəlmişdir.

3. Hüquq düşüncəsinin deformasiyası (mənfi istiqamətdə dəyişməsi), o cümlədən əvvəlki hüquqi dəyərlər və ali məqsədlər (ideallar) iyerarxiyasının artıq məhv olduğu, yenisinin isə hələ tam müəyyən edilmədiyi halı göstərən hüquq düşüncəsinin ümumi olaraq yeni təşkilinin vəziyyəti.

Beləliklə, respublikanın hüquqi sistemi ilə bağlı islahatların aparılması zamanı Azərbaycan xalqının milli hüquq düşünəsinin yuxarıda qeyd olunan xüsusiyyətlərini xüsusilə nəzərə almaq lazımdır. Qeyd etmək lazımdır ki, bütün xalqların hüquq düşüncəsində milli xüsusiyyətlərlə yanaşı, qətlin qadağan olunması, oğurluğun qadağan olunması və s. kimi bir sıra adi təzahür formaları da

ehtiva olunur. Məhz bunu nəzərə alaraq, hansı dövlətdə yaşamasından və ya hansı mədəniyyətə mənsub olmasından asılı olmayaraq bütün insanların hüquq haqqında malik olduğu baxışların məcmusu sayılan ümumbəşəri hüquq düşüncəsi haqqında danışmaq olar.

Hüquqi ideologiyada, eləcə də hüquqi psixologiya miqyasında hüquq düşüncəsinin səviyyəsi dövlətin hüquqyaradıcılıq fəaliyyətinə geniş əhəmiyyətli təsir göstərir. Bu mənada hüquqyaradıcılıq fəaliyyətinin səviyyəsi cəmiyyətin hüquq düşüncəsinin və onun ayrı-ayrı qruplarının hüquq düşüncəsinin inikasıdır. Bu əlaqə, xüsusilə, hüquq tətbiqetmə fəaliyyətində öyrənilə bilər. Şübhəsiz ki, ictimai düşüncənin formalarından biri kimi hüquq düşüncəsi özündə istər hüquq yaradıcılığı, istərsə də hüquq tətbiqetmə fəaliyyətinə dair təcrübəni birləşdirən dinamik anlayış sayılır. Beləliklə, bu əlaqə qarşılıqlı şərtlənən və qeyri-iradi hesab olunur.

Hüquq norması hüquqyaradıcılıq fəaliyyətinin "məhsulu" (nəticəsi) sayıldığından, hüquqi sistemin strukturunda onun hüquq düşüncəsinə münasibətdə asılı mövqe tutmasını güman etmək daha məqsədəmüvafiq olardı.

Bu məsələni araşdıran bir sıra müəlliflər həmçinin hüquqi təsisatları hüquqi sistemin elementi hesab edirlər. Belə ki, S.S. Alekseyev qeyd edir: "Hüquq anlayışından (pozitiv hüquq mənasında) başqa, həmçinin hüquqi sistem anlayışı da vardır. Bu – digər institutlarla vəhdətdə götürülən, habelə onun mövcudluğu və təsir qüvvəsini təmin edən pozitiv hüquq sayılır. Eyni zamanda, məhkəmə, hüquq-mühafizə orqanları, qanunvericilik təsisatları və s. ilə vəhdət məsələsi də nəzərə alınmalıdır" [5, s. 14]. Amerikan hüquqşünası L. Fridman bütün hüquqi hadisələri üç böyük qrupda təsnifləşdirir. Müəllif tərəfindən birincisi "struktur" adlandırılan qrupa hüquqi sistemin prinsiplər və hüquqi təsisatlar daxil edilir. "Mahiyyət" adlandırılan ikinci qrup hüquqi sistemin daxilində normaları və subyektlərin davranışlarının nümunələrini özündə birləşdirir. Üçüncü qrup hesab olunan

"hüquqi mədəniyyət" subyektlərin bütövlükdə hüquqa və hüquq sisteminə münasibəti, habelə cəmiyyətin hüquqi həyatında ideal və ümidləri ehtiva edir.

Hesab edilir ki, bu halda hüquqi sistemin özünün xarici mühitinin hissələri vasitəsilə dəyişdirilməsi qeyri-mümkündür. Məlum olduğu kimi dövlət və qeyri-dövlət tipli hüquqi təsisat "siyasi sistem" anlayışı ilə ifadə edilir. Hüquqi sistem anlayışı hüquqi hadisələrə nisbətdə daxili hüquqi proseslərin əks etdirilməsi (inikası) üçün müəyyən olunmuşdur. Bilavasitə məzmun formalaşdırmadığına görə, hüquqyaratma və hüquq düşüncəsinə təsir göstərən sosial amilləri hüquqi sistemin elementləri kimi nəzərdən keçirmək məqsədəmüvafiq hesab edilə bilməz. Məsələn, R.Z. Livşits hesab edir ki, "Hüquq mürəkkəb hadisədir. O, üç səviyyəni olduğu kimi, həm də üç elementi əhatə edir. Birinci səviyyə - hüquqi ideyalar və hüquqi düşüncə, ikinci səviyyə - hüquqi normaları, üçüncü səviyyə isə ictimai münasibətləri ehtiva edir" [11, s. 19].

Hüquqi sistemin tərkibində hüquqi təcrübənin – hüquqi göstərişlərin nəşr olunması fəaliyyətin (təfsir, realizə və s.) fərqləndirilməsi tam şəkildə qanunauyğundur. Hüquqi sistemin tərkibində hüquqi təcrübənin fərqləndirilməsi onun göstəricisi sayılır ki, hüquq hüquqi normaları təmin etmək və onları həyata keçirmək iqtidarında olan səlahiyyətli dövlət orqanlarının fəaliyyəti ilə vəhdətdə və qarşılıqlı əlaqədə mövcuddur və təsir qüvvəsinə malikdir [15, s. 178]. Həm də nəzərə almaq lazımdır ki, səlahiyyətli qurumlar, hər şeydən öncə, ədalət mühakiməsi orqanları hüquqi normaların realizəsi məqsədilə fərdi hüquqi göstərişləri ifadə edən təsir qüvvəsinə malik hüquqi aktlar (hökmlər, qətnamələr, qərarlar) çıxardır. Bir sıra hallarda qanun əsasında bu hüquqi göstərişlərin köməyilə səlahiyyətli orqanlar ictimai münasibətlərin fərdi tənzimlənməsini, məsələn, cinayət işləri üzrə konkret cəza tədbirlərini, yaxud mülki işlərdə ümumi mülkiyyətin istifadə qaydasını müəyyən edərək həyata keçirir. Qanunçuluğun tələblərinə əsasən səlahiyyətli orqanların bu cür fərdi-hüquqi, o cümlədən fərdi-tənzimləyici fəaliyyəti qanunqüvvəli xarakter daşımalıdır, habelə hüquqi

normaların nəzərdə tutduğu forma və prosedurlar əsasında və çərçivəsində əsaslandırılır.

Hüquqi təcrübənin səciyyəvi əlamət və xüsusiyyətlərinin təhlili göstərir ki, o,cəmiyyətin hüquqi sistemində nisbətən müstəqil yer tutur və hüquqi tənzimetmə mexanizmində əhəmiyyətli rol oynayır. Beləliklə, Azərbaycan cəmiyyətinin əsas sosial-iqtisadi, mədəni və digər ehtiyaclarını əks etdirən hüquqyaradıcılıq fəaliyyəti vasitəsilə, normaların, proqramların və davranış modellərinin hüquqi göstərişləri Azərbaycan Respublikasının normativ-hüquqi sisteminə daxildir. Azərbaycanda təşəkkül tapan sosial-iqtisadi, siyasi və milli vəziyyət, bütövlükdə təhsil, mədəniyyət və mənəvi həyat sahəsində şərait hüquqyaradıcılıq tempinin yüksəldilməsini, habelə əsas və mühüm qanunların təxirəsalınmadan qəbulunu tələb edir. Hüquqyaradıcılıq fəaliyyəti ilə bağlı təcrübə onu göstərir ki, qənaətbəxş səviyyədə olmayan və ziddiyyətli normativ-hüquqi aktlar onları qəbul edən orqanların nüfuzuna mənfi təsir edir, hüquqi nihilizmin meydana gəlməsinə səbəb olur, çətinliklə realizə olunur, habelə əsas aktın mahiyyətinə gətirib çıxarmayan izahlar və müəssisədaxili təlimatlar kütləsinin yaranmasına gətirib çıxarır.

Hüquqi tənzimetmə mexanizmində olan dəyişikliklər, hüququn müxtəlif subyektləri arasında müqavilə münasibətlərinin və hüquqi baxımdan özütənzimlənən sahələrin genişlənməsi, ictimai həyatda məhdudlaşdırıcı-qadağanedici üsullardan ümumi yolverilən vasitələrə, ictimai sahədə isə dövlət orqanları və vəzifəli şəxslərin fəaliyyətinin icazəli qaydasına keçid hüquqyaradıcılıqla bağlı bütün konsepsiyalara yeni yanaşmaların meydana gəlməsini, hazırda qüvvədə olan qanunvericilik aktının hər birinə yenidən baxılmasını, habelə onun insan hüquqları haqqında beynəlxalq normalara və beynəlxalq hüququn digər aktlarına uyğunlaşdırılmasını tələb edir.

Əhəmiyyəti baxımından hüquqi fəaliyyətin mühüm növü hüquqtətbiqetmə fəaliyyəti –ictimai münasibətlərin hakimiyyət xarakterli fərdi tənzimlənməsidir. Hüquqtətbiqetmə fəaliyyətinin əsas təyinatı hüquqi normaların həyata keçirilməsi

sayılır. Əgər biz Azərbaycan Respublikasının hüquqtətbiqetmə təcrübəsi sahəsində əsas və strateji istiqamətləri müəyyən etsək, bu halda onlar bütün hüquqtətbiqetmə orqanlarının yeni iş səviyyəsinin keyfiyyət etibarilə artırılmasına, onların şəxsiyyətin maraqlarının qorunmasına dair fəaliyyətinin əhəmiyyətli dərəcədə fəallaşdırılmasına, iqtisadi təhlükəsizliyin və ictimai qaydanın təmin olunmasına, istehlak bazarının müdafiəsinə, hüquqpozmaların profilaktikasına gətirib çıxarar.

Bundan əlavə, hüquqi normalar pozulduğu təqdirdə,hüquqtətbiqetmə fəaliyyəti vasitəsilə dövlət məcburiyyət tədbiri tətbiq olunur. Burada ümdə yeri ədalət mühakiməsi, həmçinin qanun əsasında fəaliyyət göstərən orqanlar tutur. Lakin onların fəaliyyəti sözün dəqiq mənasında hüququn tətbiqi ilə məhdudlaşdırılmamalıdır. S.S. Alekseyev qeyd etmişdir ki: "Ədalət mühakiməsi yazılı hüquqi göstərişlərin mexaniki həyata keçirilməsi (Sovet dövründə olduğu kimi) demək deyildir, onun özü canlı, real həyatda olan hüquq hesab olunur" [6, s. 256]. Azərbaycan gerçəkliyinə uyğun olaraq qeyd olunanlar onu göstərir ki, konkret işlərin həlli zamanı məhkəmələr fundamental hüquqi dəyərlərə - insan hüquqlarına əsaslanmalı, habelə Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulduğu kimi ölkənin qanunvericilik sisteminin tərkib və ayrılmaz hissəsi sayılan beynəlxalq hüquq normalarını tətbiq etməlidir. Bu hal Azərbaycan Respublikasının bütöv hüquqi sistemini və onun ayrı-ayrılıqda hər bir komponentini səciyyələndirir.

## References

1. Azerbaycan Respublikasi Konstitusiyasi [Constitution of Azerbaijan Republic]. Baku, 2009, 48 p.

2. Huquq ensiklopediyasi [Juridical Encyclopedia]. Baku, 2007, 1107 p.

3. Malikova M.F. Huquq sistemi ve sistemliliyi [Legal system and systemacy] / Qloballashan cemiyyetde huquq elminin actual problemleri movzusunda respublika elmi konfransinin materiallari [Actual problems of legal science in globalized society/ materials of Sci. Conf.]. Baku, 2008, pp. 3-5.

4. Suleymanov J.I. Huquq nezeriyyesi. Ders vesaiti [Legal theory. Teaching aid]. Baku, 2014, 417 p.

5. Alekseev S.S. Pravo na poroge novogo tysyacheletiya [Law on the threshold of the new millennium]. Moscow, 2000, 256 p.

6. Alekseev S.S. Teoriya prava [Theory of law]. Moscow, 1995, 320 p.

7. Afanasyev V.G. Sistemnost' i obschestvo [Systemacy and society]. Moscow, 1980, 368 p.

8. Bartsits I.N. Pravovoe prostranstvo: osnovnye priznaki i zakonomernosti razvitiya [Legal space: the main features and patterns of development]. Zhurnal rossiyiskogo prava [Journal of the Russian Law]. 2000, no. 5-6, pp. 103-114.

9. Kravets A.S. Veroyatnost' i sistemy [Probability and systems]. Voronezh, 1970, 192 p.

10. Lazarev V.V., Lipen S.V. Teoriya gosudarstva i prava [Theory of state and law]. Moscow, 2000, 448 p.

11. Livshits R.Z. O legitimnosti zakona [On legitimacy of law]. Pravovoe gosudarstvo, lichnost', zakonnost' [Legal state, personality, legality]. Moscow, 1997, issue no. 4.

12. Lukasheva E.A. Sotsialisticheskoe pravosoznanie deyistvitel'nosti [Socialistic legal awareness of the reality]. Moscow, 1973, 344 p.

13. Ostroumov G.S. Pravovoe osoznanie deyistvitel'nosti [Legal awareness of the reality]. Moscow, 1969, 173 p.

14. Pravovaya sistema sotsializma [Legal system of socialism]. V 2 t. Pod red A.M. Vasilyeva. Tom 1. Ponyatie, struktura, sotsial'nye svyazi [in 2 vol. Ed. by A.M. Vasiliyev. Vol 1. Notion, structure, social links]. Moscow, 1986, 366 p.

15. Problemy teorii gosudarstva i prava. Pod red. S.S. Alekseeva [Problems of theory of state and law. Ed. by S.S. Alekseev]. Moscow, 1987, 448 p.

16. Tiunova L.B. O ponyatii pravovoyi sistemy [On the notion of legal system]. Pravovedeniye [Jurisprudence]. 1985, no. 1, pp. 63-69.

17. Chefanov V.A. Pravovoe soznanie kak raznovidnost' sotsial'nogo otrazheniya [Legal awareness like a variety of social mapping]. Kiev, 1976, 172 p.
18. Entsiklopedicheskiyi yuridicheskiyi slovar' [Encyclopedic juridical dictionary]. Moscow, 1996, 622 p.